Hörmətli namizəd,

Xarici İşlər Nazirliyinə diplomatik xidmətə qəbul üzrə imtahanın nəticələrinə dair apellyasiya komissiyasına elektron ərizə ilə müraciətiniz üçün sizə təşəkkür edirik.

Apellyasiya prosesi müddətində imtahanın məzmunu ilə bağlı müraciətinizdə qeyd etdiyiniz sorğunuzu və yazı işinin qiymətləndirilməsi meyarları ilə əlaqədar narazı qaldığınız məqamları komissiya üzvləri ilə bölüşə və müzakirə edə bilərsiniz.

Sizin müraciətinizə ***"Zoom" proqramı və ya telefon əlaqəsi*** vasitəsilə baxılacaq. Bir namizədin müraciəti üzrə maksimum 15 dəqiqə müzakirə aparılması nəzərdə tutulmuşdur. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılacaq.

Namizədlərin görüşə təyin olunmuş vaxtdan 15 dəqiqə əvvəl qoşulması xahiş olunur. Görüşə qoşulmaqdan imtina edən namizədlər üçün ikinci dəfə komissiya yaradılması nəzərdə tutulmur. Qeyd edək ki, apellyasiya prosesinin qaydalara uyğun təşkilinə dair daxili nəzarəti həyata keçirmək məqsədilə namizədlərin komissiya üzvləri ilə görüşünün video yazısı aparılır.

XİN-də diplomatik xidmətə qəbul olmaq istəyən namizədlərin yazdıqları esselər üçün qiymətləndirmə meyarları Ümumavropa çərçivə sənədinin (CEFR - The Common European Framework of Reference for Languages) C1 səviyyəsi tələbinə uyğundur. Ona görə C1 səviyyəsi haqqında məlumatla linkə keçid edərək bir daha tanış olmağınız tövsiyə olunur: https://eservices.dim.gov.az/ELIMT/XINTest/UmumiMelumat

Hər bir namizəd təklif olunan mövzulardan biri üzrə həm Azərbaycan, həm də seçdiyi xarici dildə esse yazmalı və bu yazıda (essedə) öz fikirlərini aydın və düzgün ifadə etməlidir. Essenin yazılmasına qoyulan tələblər aşağıdakı keçiddə əks olunmuşdur. https://eservices.dim.gov.az/ELIMT/XINTest/Qanunvericilik